Qazaxstanın “DARIN” elm mərkəzi və Süleyman Dəmirəl Universitetinin təşkil etdiyi olimpiadada 30-a yaxın ölkədən (Azərbaycan, Türkiyə, Pakistan, Rusiya, Türkmənistan, Tacikistan, Qırğızıstan, Somali, Uqanda, Əfqanıstan, Nigeriya, Gürcüstan, Venesuela, İordaniya, Seneqal, Banqladeş, Hindistan, CAR, Ukrayna, Özbəkistan, Myanma, Tailand, Kamboca və s.) 250 məktəbli iştirak edib. Olimpiadada Azərbaycan “İstək” liseyinin iki şagirdi ilə təmsil olunub.

Qaydalara müvafiq olaraq, komandalar 5 kategoriya - proqramlaşdırma, kompüter sənəti, qısa film, “hardware” nəzarəti, “robotiks” üzrə birincilik uğrunda mübarizə aparıblar.

“İstək” liseyinin 8-ci sinif şagirdləri Alsu Əlizadə və Pakizə Quliyeva olimpiadada “robotiks” kategoriyası üzrə “Line Follower” layihəsi ilə iştirak edib və ən yüksək bal toplayaraq, qızıl medala layiq görülüblər.